# Atatürk irsi öyrənilir





**Müasir Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkü anma tədbirləri çərçivəsində qardaş ölkəni ziyarət edən azərbaycanlı millət vəkili, Atatürk Mərkəzinin rəhbəri professor Nizami Cəfərov İstanbulda təşkil edilmiş bir çox tədbirlərdə iştirak etdi. O, əvvəlcə Macarıstanın Baş Konsulluğunda, sonra Mərmərə Qrupu Vəqfi ilə Baş konsulluğun təşkil etdiyi və İstanbulda yerləşən müxtəlif diplomatik missiya rəhbərlərinin də qatıldığı toplantıda, daha sonra Böyükçəkməcə Atatürk Mədəniyyət Mərkəzində "Atatürk və Azərbaycan" mövzusunda çıxışlar etdi.**

Azərbaycanda Atatürk irsinin öyrənilməsi ilə bağlı tədqiqatların dörd mərhələdə aparıldığını söyləyən professor N.Cəfərov həmin dövrləri belə təsnif edir:

Nəriman Nərimanov dövrü, Məmməd Əmin Rəsulzadə dövrü, Heydər Əliyev dövrü və İlham Əliyev dövrü.

"Nəriman Nərimanov dönəmində kommunist rejimi Atatürkə qarşı diqqətli idi. Moskva N.Nərimanova Şərq aləminin və bütün müsəlman dünyasının liderinə çevrilə bilməsi üçün ciddi dəstək verirdi. Sovetlər belə düşünürdülər ki, İran, Əfqanıstan və Türküstan miqyasında onun qarşısına çıxa biləcək rəqib yoxdur. Ancaq bu məsələdə Türkiyə sarıdan narahat idilər. Mustafa Kamal Paşa çox ciddi və güclü bir rəqib idi" - deyən N.Cəfərov bu məqamın Ankara hökumətinin Bakı Böyükelçisi Memduh Şevket Esendalın Ankaraya göndərdiyi rəsmi məktublarda da yer aldığını vurğuladı.

Natiq çıxışına davam edərək öz dövründə N.Nərimanovun Atatürkün siyasətinə çox diqqətlə yanaşdığını dedi.

Cümhuriyyətin ilk 10 ilində Məmməd Əmin Rəsulzadə də Atatürkə müsbət münasibət bəsləyirdi.

Azərbaycan Respublikasının Polşa Böyükelçisi prof. Vilayət Quliyevin Azərbaycan Xalq Cümhuriyyətinin liderlərindən Məmməd Əmin Rəsulzadənin Atatürkün vəfatından sonra Varşavada yayımlanan "Şimali Qafqaz" jurnalının 1938-ci il 55 və 56-cı saylarında" rusca yer alan məqaləsini 2015-ci ildə Azərbaycan dilinə çevirərək dərc etdirdiyi məqalədə bəzi həqiqətlərin yer aldığnı söyləyən Nizami Cəfərov qeyd etdi ki, həmin məqalədə M.Ə.Rəsulzadə Atatürkün İstiqlal savaşında avropalıları məğlub etdikdən sonra ölkəsini avropalaşdırmaq xəttini tutduğunu vurğulayır, onun panislamizm və pantürkizmə qarşı hər nə qədər məsafə saxladığına rəğmən Şərqdə və İslam dünyasında böyük hörmət qazandığını söyləyirdi.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dönəmdə Atatürkün bir çox məsələlərdə örnək olduğunu bildirən professor Nizami Cəfərov Atatürk Mərkəzinin də onun əsəri olduğunu söylədi. Heydər Əliyevin Atatürklə bağlı fikirləri əsasında kitablar yazıldığını diqqətə çatdıran natiq - Türkiyə Cümhuriyyəti Atatürkün yalnız fəaliyyətinin əsəri deyil, həm də qəhrəmanlığının nəticəsidir - fikirlərinin də Azərbaycan dövlət başçısına aid olduğunu vurğuladı: "Atatürk elə bir şəxsiyyətdir ki, onun haqqında hər nə qədər məlumat sahibi olsaq, yenə də azdır. Onun həyatı daima öyrənilesi örnəkdir. Onun ideyalarından faydalandığım üçün Atatürk mərkəzini qurdum".

Azərbaycan Prezidenti İlham Əliyevin zamanında bu istiqamətdə fəaliyyətin Heydər Əliyev prinsiplər əsasında böyük vüsət aldığını söyləyən Bakı Atatürk Mərkəzinin rəhbəri çıxışını aşağıdakı sözlərlə bitirdi: "Heydər Əliyev söyləyirdi ki, Atatürkün şəxsiyyəti o qədər dəyərlidir ki, qurduğu Türkiyə Cümhuriyyəti həm Türkiyə üçün, həm də bütün Türk dünyası üçün önəmlidir. Zira, əsəri bu gün də yaşamaqdadır".

**DR. Akkan Suver,**
**Mərmərə Qrupu Vəqfinin rəhbəri.**